# Çoxqatlı, çoxrəngli və hərəkətli...

## *İsa İsmayılzadənin poeziyası haqqında*



■ Nərgiz CABBARLI

Özündə xüsusi enerji, sirli ovqat, anlaşılmaz təsir gücü daşıyan şeirlərdən başqa diri və canlı ruh gəzdirən şeirlər də var. Müəllifi harda olursa olsun (bu dünyadamı, o dünyadamı) bu "ruh" öz yeni həmsöhbətini (oxucusunu), anlayanını, görənini axtarır, tapır, özünü göstərir, həqiqətini dinlədir və iz buraxaraq (oxucu ruhunu silkələyəcəkmi, rahatladacaqmı - bu da bir başqa məsələdir) növbəti ünvanına yol alır. Əslində şeiri (şairi!) Yaşarı edən, yox olmağa qoymayan həm də (və daha çox) budur. Bu nəsnə şairin (müəllif olaraq insanın) ruhundan kiçik bir zərrə də ola bilər, böyük bir parça da (bu təsir, əlbəttə ki, yaradılan poetik nümunənin gücü ilə də əlaqəlidir və mütləq onunla da birləşmə, bütünləşmə baş verməlidir).

Çox az şairin şeirində bunu duymaq olur. Amma Azərbaycan modernist şeirinin yaradıcısı olan İsa İsmayılzadədə mətnin gücü təkcə ondakı şeiriyyətdə, poetik uğurda, təbii şəkildə ötürülən və obrazlaşdırılan ovqatda, mətndə baş verən yenilik aktında, daşıdığı canlı enerjidə deyil - həm də yaşatdığı, qoruduğu canlı ruhdadır. Onun təsvir etdiyi situasiya (mənzərə də, proses də həmçinin) öz müəllif ruhu ilə o qədər doludur ki, sanki bu ruhu daşıyan sözlərin energetik axını oxucunu özünə çəkərək təsvir edilənlərin (bu, hər nə olursa olsun) içinə ötürür. Bu keçidin baş verməsi bir anın (Oxu anı!) içində reallaşsa da, sonra uzun müddət təəssüratda yaşayır (hətta oxu prosesi bitdikdə belə!) Məsələn,

***Burda vaxtın ayağından daş asılıb***
***Ağacları heykəl kimi***
***susar, susar -***
***Yarpaqları qaradinməz,***
***Budaqları qaradinməz.***
***Ağac sənə qulaq asar,***
***Yarpaq sənə qulaq asar,***
***Sükut sənə qulaq asar.***
***Burda vaxtın ayağından daş asılıb.***
***Bu meşənin ortasında,***
***Bu sükutun ortasında***
***Yarpaqların yanağından yaş asılıb,***
***Çiçəklərin gözlərindən yaş asılıb.***

"Ayağından daş asılan" zamanın içinə düşmə" prosesi dərhal baş verir. "Qaradinməz" təyinli ağacların, yarpaqların hesabına səssiz, küləksiz, yarpaqları, çiçəkləri şeh qoruyan bir meşənin içindəcə görürsən özünü. "İşım-işım işıldayan səssizlik" canlı bir varlığa çevrilir. "Gözlərindən yaş asılan çiçəkləri" görmə prosesi o qədər rahat baş verir ki, sanki mənzərə sənin gözlərin önündə nəfəs alır və onu nəinki görür, həm də hissinlə, ruhunla duya, təmasda ola bilirsən. Çünki mətndə şairin ruhu canlıdır, diridir - nəfəs alan da, duyduqlarını, gördüklərini ötürən də təkcə Söz deyil, həm də Odur...

Şairin fərqliliyi ondadır ki, proses təkcə mətnin məzmun qatında reallaşmır. Həm də texnika baxımından dəstəklənir. İlk misralarda (susar, susar... qaradinməz-qaradinməz... daş asılıb-yaş asılıb... təkrarlarındakı hərəkətsizlik) tərpənişsizliyin, donuqluğun, dayanmanın təsvirini möhkəmlədir. Fotoeffekt təsiri yaradır. "Heykəl kimi ağac" obrazı - yənı yenə də tərpənməzlik bu təsiri bir qədər də gücləndirir. Amma sonrakı gedişat (qulaqlarda səssizlik uğuldayır, "cığır - qaça-qaça yola çıxır" qafiyələnməsi) hərəkətə başlayır, sükutun içindən çıxan ruhla birlikdə mənzərə - panorama hərəkəti reallaşır. Bu texniki cəhətdən ("gedək, gedək", "enək", "çıxaq", "isidək" daxili qafiyələnməsi ilə, eyni zamanda "cığır", "tala", "dərə" sözləri arasındakı semantik keçidlə) də dəstəklənir. Hətta səssizliyin özü belə hərəkət etməyə başlayır (uğuldayır...)

***Dinləyirəm -***
***Səssizlikdən qulaqlarım uğuldayır,***
***Səssizliyi yarıb keçən tənha cığır***
***Baş götürüb qaça-qaça***
***hardasa bir yola çıxır.***
***Burda vaxtın ayağından daş asılıb.***
***Gecələrin boyu gödək.***
***Gedək, gedək,***
***Çıxaq sükut cığırına,***
***Gedək sükut talasına,***
***Enək sükut dərəsinə -***
***İşım-işım işıldayan səssizliyi***
***Gözümüzlə isidək.***

Mənzərədə sükut, təsvirdə hərəkətsizlik olsa da, ruhda, baxışlarda metafizik bir irəliləmə, toxunma baş verir. Ruhun hərəkəti reallaşır. O dərəcədə güclü bir şəkildə ki təsvir edilənlər bu an - oxu anında Müəllif rakursundan, həm də çox yüksək bir nöqtədən (görüntünü aydın bir şəkildə göstərərək) panorama olunur. Eyni zamanda Oxucu bu prosesin canlı iştirakçısı, şahidi, həmsöhbəti kimi duya bilir özünü. Bu da İsa İsmayılzadə şeirlərini özünəməxsus edən xüsusiyyətlərdəndir. Yəni ruhun canlılığı ilə bərabər daha bir xarakterik cəhət: oxucunun "həmmüəllifliyi" baş verir. Məsələn, yuxarıdakı şeirdə olduğu kimi, oxucu "tənha cığırın" adam kimi "baş götürüb qaçmasının" canlı şahidinə çevrilir. Və təsvir elə bir şəkildə aparılır ki, oxucu özündən asılı olmadan prosesin iştirakçısı olmaqla bərabər, həm də davametdiricisi, inkişafetdirici qismində çıxış edir. Mətndə proses bitdikdən sonra da (oxu bitdikdə!) təsvir olunanların bir parçası kimi orada mövcudluğunu qoruyub saxlaya bilir.



Daha bir xüsusiyyət: İsa İsmayılzadə insanı təbiətlə deyil, təbiəti insanla müqayisə edir, Təbiəti insanlaşdırır. İnsan təbiətə deyil, təbiət insana köçürülür. İnsan təbiət kimi (bu daha doğrusu və məntiqlisidir, çünki təbiətin bir parçasıdır, istəsə də, istəməsə də, onun bətnindən ayrılıb) dindirilmir, təbiət insan kimi canlandırılır, obrazlaşdırılır. Yəni hadisə yeni məntiqi gedişata salınır. "Baş götürüb qaçan tənha cığır" obrazı bu yaradıcılıqda hər zaman çox fərqli obrazlarla davam etdirilib.

***(Davamı səhifə 15-də)***

# Çoxqatlı, çoxrəngli və hərəkətli...

## İsa İsmayılzadənin poeziyası haqqında

*(Əvvəli səhifə 14-də)*

***...Bir tənək çubuğu sancdım torpağa,***
***Qollarımdan tuta-tuta***
***Əllərimin sığalında***
***Yarpaq-yarpaq boy atırdı.***
***Meh əsəndə, körpəsayaq***
***Qıvrım-qıvrım tellərini,***
***əllərini***
***oynadırdı.***

Göründüyü kimi, prosesin tərs üzü gedir. Bir tənək çubuğuna bənzədilə biləcək körpənin yerini bir körpə kimi sevilən, əzizlənə-əzizlənə böyüdülən "tənək çubuğu" alır. Körpə insan övladı kimi onu bəsləyənin "qollarından tuta-tuta", "əllərinin sığalını" duya-duya böyüyür. Qıvrım telləri, meh əsəndə oynayan əlləri də havada çırpınan körpə uşaq əlləri qədər sevimli, əziz görünür.

Bir sözlə, insan xüsusiyyətlərinin təbiət hadisəsinə, təbiət faktına köçürülməsi öz maraqlı nəticəsini verir. Və Təbiətin insanriləşdirilməsinin özündə elə bir qanunauyğunluq meydana çıxır ki, bu proses (bu poeziya!) Təbiəti İnsana daha yaxın gətirir, daha doğma edir və istədin-istəmədin onun bir parçası olduğunu bu əks-bənzətmə ilə bir daha hiss etmiş, reallığına varmış olursan:

***Bir əli bu sahildə,***
***Bir əli o sahildə***
***aramızda axan Araz!..***
***Əlini sahilinə***
***Dayaq verib, qalx bir az,***
***Bu dünyaya bax bir az...***

Tez-tez şeirlərdə yeni təsvir, yeni ifadə vasitəsinin yaradılması üçün zorlanan və bu məcburiyyətdən dağılan, sındırılan, çilik-çilik olan poetik enerjini burada görmürsən. Burada o tamdır. Çünki zorlanmayıb, poetik ruhun təbii axarı ilə yaranıb. Bu səbəbdən də səmimi bir heyrət doğurur. Bu yaradıcılıq həm də ifadə yeniliyi ilə yadda qalır. "Çəkmələrin yol udması", "ayağın üzü yola olması" hətta şeir üçün yabançı görünən ayaqları (çəkmələri!) belə obrazlaşdırır, canlandırır, ona yeni və fərqli "nəfəs" verir.

***Çəkmələrim hər gün yol udur, desəm,***
***Ayağımın üzü yoladır, desəm,***
***Gözlərim həsrətlə doludur, desəm,***
***Siz mənə.***
***Siz mənə bir ömrü halal eləyin.***

Yolların vətən-vətən arası gedişgəlişləri simvolizə edən bir obraz kimi çıxış etməsi nə qədər adidirsə, "yol udan çəkmələr"in bu prosesdə iştirakı, "üzü yola olan ayağın" da ona qoşulması bir o qədər fərqli və orijinaldır. Ümumiyyətlə, İsa İsmayılzadə özünəməxsus, kimsəni təkrarlamyan, orijinal ifadə-təsvir kombinasiyaları qurmağı deyil, şeirə gətirməyi sevirdi. Həm də sanki təbiətdən - varlıqdan, mövcudluqdan dartıb gətirirdi onları. Heç bir süni "qurma" prosesinə yol vermədən.

Məsələn, onun şeirlərində daxilən dağılmış, sınmış (yaxud sındırılmış) insanın o qədər orijinal və bənzərsiz bir obrazı var ki, bəlkə şeirimizdə bu qədər fərqlisinə siz də rast gəlməmisiniz:

***Mən bir termos şüşəsiyəm,***
***çilik-çilik olmuşam,***
***tökülmüşəm içimə.***
***(Eh, kimin nə vecinə)...***
***Birinin gözlərindən,***
***birinin ürəyindən***
***qolaylanıb atılanda,***
***tənhalığın üstünə düşüb, sınmışam -***
***necə sındığımı heç kəs görməyib,***
***Mən bir termos şüşəsiyəm,***
***Təzədən, təzədən,***
***təzədən sınmaq üçün,***
***təzədən yanmaq üçün***
***bir heyrətin üstünə***
***daş kimi düşəsiyəm...***

Bilmirəm, onda Rəsul Rza məktəbinin təsirini axtaranlar nə dərəcədə haqlıdırlar (şəxsən mən bunu hiss etmədim, yeri gəlmişkən bir dəfə prof. Məhərrəm Qasımlı Əli Kərim haqqında danışanda da təxminən eyni fikri işlətmişdi: "Rəsul Rzadan burda heç nə yoxdur" - şəklində), amma söz yaradıcılığı istiqamətində şeirimizə ən gözəl, maraqlı töhfələri verən Rəsul Rza kimi İsa İsmayılzadənin də yaradıcılığında bu istiqamət mövcuddur.

***Ürəyimin də***
***sevinc tutumu***
***arzumdakından***
***min dəfə kiçik.***
***Daha doğrusu -***
***sən dəfə kiçik.***
***Nəyimə gərək "sevincmetr"lər?***
***ürəyim varsa...***

"Sevincmetr" ilk baxışdan diqqəti çəkən yeni bir anlamdırsa, "sən dəfə kiçik" yeni ölçü vahidi kimi orijinal və maraqlıdır.

Formanı, strukturu, yazılma texnikasını bir kənara qoysaq, şeir öz üst təbəqəsi - məsələn, məzmunu ilə də ilk baxışdan özü haqda müəyyən (əksərən də dəqiq) informasiya ötürür: ovqatdanmı yaranıb, situasiyadanmı doğulub, təəssüratlamı bağlıdır, fikrin ruhdan irəli keçməsimidir, mühakiməmidir, yaxud bir görüntünün, bir mənzərənin təsvirinəmi hesablanıb və s. və s. Onun şeirləri fərqli məkanların, müxtəlif mənzərələrin, situasiyaların, duyğuların dartılaraq bir müstəviyə gətirilməsi ilə də fərqlənir. Rəngliliyi, çoxqatlılığı, çoxçalarlılığı ilə də özünəməxsusdur. Bu şeirlər Görünəndir. O bir şair kimi bütün rənglərdən yararlanaraq sözlə tablo yarada bilib. (Anar onun haqqıdan "Sözün rəsmini çəkib" deyir. Amma məncə, bu daha çox sözlə rəsm çəkməkdir...) Bu şeirlərdə, məsələn, təbiətin bir fraqment şəklində donan mənzərəsini də görə bilərsiniz....Yaxud nəfəs alan, çırpınan, tərpənən, hərəkət edən təsvirini də... Ya da bir insan yaşantısının, ruh halının rənglərlə göstərilmiş görüntüsünü də... Yaxud da ziddiyyətli halların bir təəssürata hədəflənən, eyni zamanda bir görüntüyə sığışdırılaraq qarşı-qarşıya gətirilməsini də... Sonuncu daha xarakterik cizgi hesab edilə bilər. Məsələn,

***Mənim təvəllüdümü***
***torpağın sinəsinə***
***xəncər yarası kimi***
***Yer kürəsindən keçən***
***döyüş səngəri yazdı.***
***Uzunboğaz çəkmənin***
***nallı dabanı ilə***
***Vətən əsgəri yazdı,***
***Göylərin sinəsinə***
***topun lüləsi yazdı,***
***Ulduzları isidən***
***fişəng şöləsi yazdı.***

Göründüyü kimi, müharibə və onun əsas elementləri - "xəncər yarası kimi səngərlər", "fişəng şöləsi", "uzunboğaz çəkmənin nallı dabanı" - ön cəbhə, döyüş, döyüş sonrası və əvvəli görüntüsünü yaradır. Oranı çəkir. Oranı göstərir. Sonra sanki ön cəbhədən "arxaya" bir panorama sürüşməsi baş verir və bu dəfə arxada "balınca tökülən göz yaşları", müharibə başlanan il doğulan insanın portreti, "anaların ümidli baxışları", "küsəyən qardaşın qabda qalan payı", "qara çərçivəli şəkil" əvəz edir. "Arxa cəbhə" deyilmir - bu detallarla yaradılır. Və beləliklə iki fərqli məkanın bir mətndə üz-üzə gətirilməsi baş verir. Hətta üçüncü keçid - sülh dövründə keçirilməli olan "xəyali təvəllüd günü" də "ekrana gətirilir".

***Yazdı təvəllüdümü***
***balınca göz yaşları,***
***yollara - anaların***
***ümidli baxışları.***
***Mən təvəllüd günümü***
***keçirmək istəmirəm.***
***Badələrin səsilə***
***oyatmaq istəmirəm.***
***Xatirə beşiyində***
***uyuşmuş həsrətləri,***
***Küsəyən qardaşımın***
***qabda qalan payı tək***
***soyumuş həsrətləri***
***oyatmaq istəmirəm.***

Göründüyü kimi, əslində bir predmetə - təvəllüdə tuşlanan obyektivə çox fərqli məkanlar, zamanlar, təsvirlər, özü də detallı şəkildə sığışdırıla bilir. Və ən əsası (bunun özü də İsa İsmayılzadə yaradıcılığının xarakterik çalarıdır) bir mətn daxilində yaradılmış bu çoxqatlılıq həm də hərəkətlidir.

Bu şeirlərdə hərəkətin bütün hallarını görmək olur... Bənzəri olmayan hallarını da. Yeni rəngdə, yeni biçimdə göstərilən (və ən əsası Görülən) bu hallar hər zaman baxdığımız, şahidi olduğumuz hadisələri belə bizə yeni rakursdan təqdim edir. Məsələn, "arxın çiçəkləməsi", "Kürün çiçəkləməsi" kimi. Bu sadəcə təsvirin duyulan, görülən kimi ötürülməsi, ifadə olunması deyil, həm də yeni təsvirin, yeni rəngin, yeni obrazın kəşfi deməkdir.

***Şıdırğı, selləmə yağış yağanda,***
***Bizim evimizin yaxınlığında***
***Arxlar çiçəkləyər,***
***Kür çiçəkləyər.***
***Suyunun sinəsi, üzü buluda,***
***Hər damcı - təzəcə açılan buta,***
***Açıla-açıla solar yerində.***
***Bir az boy göstərib, dikələmək istər,***
***Qorxulu-qorxulu bükülmək istər,***
***Bükülə-bükülə ölər yerində.***

O suyun - damcının çiçəkləməsi də, yeni açılan buta kimi görünməsi də, açılmaq istəyişi də, ölümü də bitkin bir hadisə kimi təsvir və təsəvvür edilə bilir.

İsa İsmayılzadə bir də ona görə Azərbaycan modernist şeirinin ən maraqlı nümayəndələrindən biridir ki, şeirlərində şəhərlə kənd, sivilizasiya ilə ilkinlik, yeniliklə qədimlik bir arada nəfəs ala bilir. Hətta əksər hallarda ilkinlik qalib kimi görünsə belə

***(Binələri atıb gəldim -***
***O dağ məni bağışlamaz.***
***Asfalt yolu tutub gəldim -***
***Torpaq məni bağışlamaz).***

bu yaradıcılıq bütünlükdə onların qovuşmasını, birgə nəfəs almasını təmin edə bilib. Bu özünü şeir texnikasında, üslubiyyətdə, forma-məzmun birgəliyində də çox açıq şəkildə göstərmiş olur. Bu yaradıcılıqda klassik obrazların yeni rəngləndirilməsi ilə seçilmiş olsa da, klassik səpgili aşıq şeiri də var,

***(Qışda sizi görməmişdim, a dağlar***
***Mənə yaman fağır-fağır baxdınız.***
***Çalmanızı başınıza dolayıb,***
***Ləngərlənib ağır-ağır baxdınız...***
***Qar içində boyunuz da bəstədi,***
***Bir doyunca sizi görmək istədim,***
***Yaxınlaşıb əl də vermək istədim -***
***Gülümsünüb nağıl-nağıl baxdınız...)***

yeni formalı, fərqli məzmun və ifadəli şeirlər də var. Amma yuxarıdakı şeirdəki dağlar bir obraz kimi nə qədər klassik və ənənəvidirsə (məsələn, çalması ilə), "fağır baxışları", "qar içində bəstə boyu", "nağıl baxışları" ilə bir o qədər İsa İsmayılzadəyə aiddir.

***Hərdən kövrələndə,***
***uşaqlaşanda,***
***yaşımdan, təmkindən...***
***nə bilim, nədən***
***beşcə addımlığa uzaqlaşanda,***
***özümə oyuncaq almağım gəlir -***
***şeiri kimi...***

Və onu da deyim ki, çox nadir şairlərdə bu birgəliyi görmək olur (məsələn, V.Səmədoğlu, Ə.Salahzadə).

İsa İsmayılzadə həm də yaradıcılığı az tədqiq edilən (tədqiq edilməyən desəm, bəlkə daha doğrudur!) şairlərimizdəndir. Elə şairlərdən ki, az qala hər şeiri bir əsər ağırlığındadır. Bənzətmələri, obrazları, poetikliyi, şeirə gətirdiyi yenilikləri ilə. Məsələn, elə Əli Kərimə ünvanladığı şeir bir xüsusi əsər kimi şərhə, izaha, təhlilə gəlir. Xüsusilə Ölümü "canlandırma" aktı ilə (yuxarıdakı Təbiət-İnsan köçürməsi bura da aiddir). Ölümü dünyaya gələn İnsanla müqayisə etməsi ilə...

***Bir il beş günlükdür ölümün sənin,***
***bir il beş günlük.***
***Bir il beş günlük körpənin***
***Ayağı yer tutur, dili söz tutur.***
***Sənin ölümünsə ömrü boyunca***
***nə ayaq açacaq, nə dil açacaq.***
***Bir il beş günlükdür ölümün hələ...***
***Təqvimdə böyüyüb yaşa dolacaq,***

Yaxud bircə elə "Haran ağrayır, Vətən" poeması bəs edir ki, bu yaradıcılıq prosesin ifadəsi, əksi kimi tədqiq edilsin.

***Kim daraşdı torpağına,***
***haran ağrıyır, Vətən?***
***Şəhid olub, külə döndü,***
***Kim qarışdı torpağına,***
***haran ağrıyır, Vətən?***
***Kim aradan çıxıb getdi,***
***Bayrağını yıxıb getdi -***
***haran ağrıyır, Vətən?***
***Azadlığın qan içində,***
***Qovrul, kükrə, yan içində***
***Sızım-sızım sızıldayır***
***Gündüzün də, gecən də -***
***haran ağrıyır, Vətən?***

Amma təəssüf ki, tədqiq və təhlil edilmir. Və bu məqamda (bir də son olaraq) təəssüflə onu da qeyd etməyi özümə borc bilirəm ki, tədqiq cəhətdən "itirilmiş", "unudulmuş" nəslin yeganə nümayəndəsi İsa İsmayılzadə deyil.